# Vaksin vurduran insanın immun sistemi virusu tanıyacaq

Koronavirusun yayılması, insanların infeksiyaya yoluxması isə hələ də bütün dünyada sürətlə davam edir. Hətta artıq bir çox ölkələrdə mutasiya olunmuş virus da yayılmağa başlayıb. Bir- birinin ardınca ortaya çıxan mutasiyalar yeni pandemiya həyəcanını daha da artırır. Mütəxəssislər hesab edirlər ki, koronavirusun yeni ştammlarının fəsadları daha ağır ola bilər. ÜST-nın ekspertləri bildiriblər ki, dünyada COVID –19-a yeni yoluxma hallarının sayının azalması fonunda yeni mutasiyalarının aşkar olunduğu ölkələrin sayı artmaqda davam edir. Həmçinin yeni ştammın Azərbaycandan da yan keçməyəcəyi deyilir.

Türkiyəli həkim infeksionist Bülent Ertuğrul üçüncü dalğanın astanasında olduğumuzu bildirib. Həkim bunun qarşısını almaq üçün uyğun tədbirlər görməli olduğumuzu da deyib: “Önümüzdəki həftələrdə mutasiya olunmuş virusun qarşısını almasaq, yoluxmaların sayı daha da artacaq. Bundan sonra isə üçüncü dalğa başlaya bilər. Ona görə də xəstəlikdən qorunmaq üçün qadağalar çox önəmlidir. Ümumiyyətlə, xəstəliyin qarşısını almaq üçün iki yol var. Birincisi, qadağalar, digəri isə peyvənddir. Təəssüf ki, peyvənd olunanların sayı çox aşağıdır. Bunu artırmağın yolunu tapmalı, daha çox təbliğat işləri aparmalıyıq”.

Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov virusun mutasiyası ilə bağlı deyib ki, koronavirusun yeni ştamminın yayılması hələ davam edəcək. Hələ ki, mutasiyalarda virusun yayılma sürətinin artması müşahidə edilib. Onların uşaqlar arasında daha təhlükəli olması məsələsi aşkarlanmayıb. O, həmçinin uşaqlarda virusa qarşı vaksinasiyanın aparılıb–aparılmaması ilə bağlı suala aydınlıq gətirərək bildirib ki, uşaqlar arasında vaksinasiya aparılmır, çünki onlar risk qrupuna aid deyil. Amma bundan sonra da gigiyenik qaydalara ciddi əməl olunmalıdır. Uşaqların spirtdən çox istifadəsinə gəlincə, onların dərisi daha zərif olduğundan, spirtdən lazımi qədər istifadə olunmalıdır. Professor, eyni zamanda qeyd edib ki, uşaqlar böyüklərə nisbətən koronavirus xəstəliyini daha yüngül keçirirlər. Onlar yoluxsalar da, bu, daha çox simptomsuz olur. Uşaqlar xəstələnsələr də, böyüklərə nisbətən onlarda ağır hallara çox az rast gəlinir. Mütəxəssis bildirib ki, hazırda koronavirus əleyhinə sınaqdan keçirilmiş 3 cür peyvənd tətbiq olunur ki, onlardan da ən təhlükəsizi Azərbaycanda istifadə edilən Çinin “Sinovac” şirkətinin istehsal etdiyi “CoronaVac” vaksinidir. Çünki bu, həm inaktiv, həm də ən təhlükəsiz peyvənddir. “CoronaVac” pediatrik peyvəndlər kimi inaktiv üsulla hazırlanıb. Peyvənd bədənə vurulduqda immun sistemi potagenə qarşı tez və yetərli reaksiya verir. Bununla da vaksin vurduran insanın orqanizmi virusla qarşılaşdıqda, onun immun sistemi virusu tanıyır və bədəni qoruyur. Həmin şəxs virusa yoluxsa belə, xəstəliyi yüngül keçirir.

***“Dünyanın bir çox ölkələrində vaksinasiya prosesinə başlanılsa da, daha çox ölkə hələ də, prosesdən kənarda qalıb. Qısa müddət ərzində Azərbaycanın koronavirus əleyhinə vaksini ölkəyə gətirməsi nəzərəçarpacaq uğurdur. Ümid edirəm ki, vətəndaşlar vaksinin yeganə çıxış yolu olduğunu dərk edər və prosesə lazımi şəkildə qoşulalar. Əvvəlcə, səhiyyə işçilərinin peyvənd olunması vacib və doğru qərardır. Bildiyimiz kimi, Azərbaycanda xeyli səhiyyə işçisi vaksinasiyadan keçib. Bu da onların həm özlərinin, həm də pasiyentlərin təhlükəsizliyi üçün vacibdir”. Bu fikirləri Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.***

T.Eyvazov deyib ki, aparılan araşdırmaların nəticəsinə görə, inaktiv vaksinin tərkibində insan orqanizmi üçün zərərli maddələr yer almır: “Vaksinin hər bir komponenti 3 mərhələdə test edilib. Bu günə qədər vaksinlə bağlı heç bir mənfi nəticə müşahidə edilməyib. Onu da qeyd edim ki, heç bir vaksin hər hansı virusa 100 faiz təsir göstərmir. Ölkəmizdə istifadə olunan vaksinin təhlükəsizliyi 90 faizdən çoxdur. Saxlanma şəraiti də uyğundur. Peyvəndin immun sistemində təsir müddəti hələlik 6 ay nəzərdə tutulub. Amma bu daha çox vaksinin növündən və onu vurduran şəxsin immun sisteminin vaksinə verdiyi cavabdan asılıdır”.

Görəsən, koronavirus ştammlarının artması yeni pandemiyaya səbəb ola bilərmi? Bu, baş verərsə, proseslər necə davam edəcək? Mərkəzi Neftçilər Xəstəxanasının həkim –infeksionisti Aişə Kərimova hesab edir ki, yeni ştammlar nə qədər sürətli yayılsa da, koronavirusun yayıldığı qədər qorxulu görünmür: “Çünki artıq cəmiyyət koronavirusla mübarizədə müəyyən təcrübə, qorunma tədbirləri qazandı. Məsələn, ötən ilin yaz dönəmi ilə bu ili müqayisə etsək bunu görərik. Artıq cəmiyyətdə qorunma tədbirləri haqqında məlumatlar var, təlimatlara riayət edirlər, müxtəlif strukturlar fəaliyyət göstərir. Bu gün artıq müalicə ilə bağlı ortada uğurlar var, ciddi protokollar var. Ölkəmizdə də bunlar uğurla tətbiq olunmaqdadır. Digər ən mühüm məsələ isə vaksindir. Hazırda dünyada 66 vaksin tədqiqat mərhələsindədir. Onlardan 20-si üçüncü fazanı keçməkdədir. Həmin vaksinlərdən bəziləri artıq tətbiq olunur. Bu da onu göstərir ki, ştammlarla mübarizəyə bir il öncəki kimi əliyalın şəkildə getməyəcəyik. Ştammların genetik olaraq eyni ailədən çıxdığını və yaxınlığını nəzərə alsaq, vaksinlərin yeni ştammlardan da qoruya biləcəyini deyə bilərik. Amma daha konkret sözü, təbii ki, müəyyən zamandan sonra aparılacaq tədqiqatların nəticələrinə görə elm adamları verə biləcəklər”.

Tibb elmləri doktoru, professor Adil Qeybulla isə bildirib ki, yeni ştammın yoluxuculuq qabiliyyəti daha yüksəkdir: “COVID –19-un bir çox ştammları var. Britaniya ştammı yeni bir ştammdır və onun yoluxuculuq qabiliyyəti yüksəkdir. Bu baxımdan yeni pandemiyadan deyil, yeni dalğadan söhbət gedə bilər. Britaniya ştammı sürətlə yayılsa, vaksinasiya aktiv aparılmasa, əlbəttə, üçüncü dalğanı gözləyə bilərik. Ona görə də dünya ökələri tələsməli, vaksinasiya əleyhinə aparılan təbliğatın qarşısı bütün vasitələrlə alınmalıdır. İnsanlar maariflənməlidirlər. Təəssüflər olsun ki, bizdə bu işlər çox aşağıdır. İnsanlar vaksinasiyaya həvəslə getməlidirlər. Çünki xəstəlikdən qorunmaq üçün bundan optimal yol yoxdur. Pandemiyanın yeni dalğası məhz bu mübarizə vasitələrinin adekvat olmamasından qaynaqlana bilər”.

İnfeksionist A.Kərimova isə söyləyib ki, yeni ştamlar sürətlə yayılır: “Hansısa təhlükənin olub-olmayacağı ilə bağlı hazırda bir şey demək mümkün deyil. Onun digərindən neçə dəfə sürətlə yayılmasını bilmirik. Sadəcə, alimlər modelləməklə orada geni tapıblar. Hətta bəzi tədqiqatçılar deyirlər ki, mutasiyanın sürətlə yayılması bəlkə də insanların xeyrinədir. Çünki virus mutasiyaya uğrayıb zəifləyir və bu formada da aradan çıxa bilər. Amma digər tərəfdən də sürətlə yayılması epidemik cəhətdən pisdir. Hələlik, bizdə virusun yeni ştammı yoxdur, vaksinasiya prosesinə də başlanılıb. Təbii ki, vaksinasiyanın da buna təsiri var. Bəzən deyirlər ki, mutasiya vaksinin effektliliyini bir az azalda bilər. Amma bu, 100 faiz deyil, müəyyən qədər azalda bilər. Bu, sübut olunmuş bir şey deyil, ehtimaldır, təcrübədə də özünü doğrultmayıb. Nəzərə alsaq ki, üzü yay fəslinə gedirik, vaksinasiya prosesinə də başlanılıb. Ona görə də insanlar üçün təhlükəli olduğunu düşünmürəm”.

Bakı Sağlamlıq Mərkəzinin icraçı direktoru Asiman Həsənov deyib ki, Azərbaycanda vaksinasiya tədbirlərinə başlanılmasından 29 gün keçir. Bu müddət ərzində bütün səhiyyə işçiləri, kollektivimiz vaksinasiya tədbirlərinə cəlb olunublar. Əhalinin müxtəlif qruplarından vaksinasiya olunmaq istəyi ilə xəstəxanaya kifayət qədər müraciət daxil olub. Vaksinasiya tədbirləri aidiyyəti qurumlar tərəfindən xüsusi yaş qrupları, peşə, ixtisas və iş yerlərinə görə qruplaşdırılıb. Xəstəxanada Azərbaycanda akkreditasiya olunmuş 23 ölkənin səfirliyinin, 14 beynəlxalq təşkilatın üzvlərinə və buradakı nümayəndələrinə vaksinasiya həyata keçirilib. Onlar da çox həvəslə vaksinasiyada iştirak edirlər. Bu müddət ərzində heç bir ciddi əks-təsir və reaksiya qeydə alınmayıb.



Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi Hande Harmancı fevralın 15-də yeni növ koronavirus infeksiyası əleyhinə vaksinin birinci dozasını vurdurduğunu deyib. Dörd həftə sonra ikinci dozanı da vurduracağını bildirən H.Harmancı vurğulayıb ki, nəticədə, COVID –19-a qarşı qorunmuş olacağam. Azərbaycan hökumətinə bu imkanı yaratdığı üçün minnətdarlıq edən ÜST nümayəndəsi vaksinasiyanın pandemiya ilə mübarizə üçün çox önəmli olduğunu, buna görə hər kəsin peyvənd olunmasını tövsiyə etdiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, hazırda elm adamları tərəfindən iki vaksinin eyni anda tətbiqinə dair tədqiqatlar davam edir: “İki fərqli vaksinin istifadə oluna bilməsi, səmərəsi, təsirli olması və təhlükəsizliyi məsələləri araşdırılır. Hələ ki, əlimizdə bununla bağlı nəticə yoxdur. Bununla yanaşı, koronavirus əleyhinə xeyli vaksin hazırlanmağa başlanılıb. Ümid edirəm ki, yaxın zamanlarda yaxşı nəticələr əldə olunacaq. Vaksinlərin hamısı bir-birindən üstündür. Lakin həmin üstünlüklər tam olaraq bilinmir. Bəzi peyvəndlərin bir sıra yaş qruplarında – bir qisminin gənclərdə, bir hissəsinin uşaqlarda effektiv ola biləcəyi ehtimal olunur. Hələ ki, bunlar yavaş-yavaş öyrənilir. Ümid edirəm ki, daha yaxşı nəticələr əldə edə biləcəyik. Hansı vaksin olmasından asılı olmayaraq, təhlükəsiz və təsirli olan peyvəndləri nə qədər sürətlə dünyaya yaya bilsək, hər kəs üçün bir o qədər yaxşı olacaq”.

2021 – 2022-ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə davam edir. Strategiyaya əsasən, növbəti mərhələdə, bu gün – fevral ayının 17-dən etibarən 50 yaş və daha yuxarı şəxslərin COVID – 19 xəstəliyinə qarşı vaksinasiyası başlanıb. Son olaraq, vaksin vurduran bir vətəndaş kimi deməliyəm ki, peyvənddən sonra hiss etdiyim yorğunluq, əzginlik və halsızlıq vaksinin yan təsirləridirsə, qoy olsun. Əvəzində, bir neçə ay keçsə də, ehtiyatsızlıq ucbatından koronavirus kimi bir bəlaya yoluxsam da, onu yüngül keçirəcəyimə əminəm.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***